# CƏBRAYIL, FÜZULİ VƏ QUBADLININ İŞĞALINDAN 24 İL KEÇİR...

*Lakin hələ də Dünya birliyi Ermənistanın işğalçılıq siyasətinə göz yumur*

**1993-cü il avqustun 23-də ərazisi 104 980 hektar olan Cəbrayıl rayonu erməni işğalçıları tərəfindən işğal olunub.**

Cəbrayılda respublika və rayon əhəmiyyətli tarixi memarlıq abidələri, qiymətli meşələr, böyük ehtiyata malik yeraltı sərvətlər, mineral maddələrlə zəngin su mənbələri erməni işğalçıları tərəfindən məhv edilib. İşğaldan əvvəl Cəbrayılda üzümçülük, taxılçılıq, baramaçılıq, heyvandarlıq inkişaf etmişdir. Təcavüz nəticəsində rayonun 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 5 məscid, 2 muzey, 129 tarixi abidə, 149 mədəniyyət ocağı işğal altında qalıb.

Cəbrayıl rayonunda mişar daşı istehsalına yararlı və istismara verilmiş Tulus tuf, Çaxmaqçay, Soltanlı tikinti qumu, kərpic istehsalına yararlı Qaracallı gili, sement istehsalına yararlı Göyərçin-Veysəlli vulkan külü, Minbaşlı gəc, əhəng istehsalına yararlı Ağtəpə əhəngdaşı, Cəfərabad qum-çınqıl qarışığı, Şahverdi yeşəm, Çaxmaqqaya xalsedon yataqları var.

Cəbrayıl şəhərində yaşı 500 il olan 1, Hacılı kəndində yaşı 700 il olan 1, yaşı 1600 il olan 6, Karxulu kəndində yaşı 200 il olan 1, Funqalı kəndində yaşı 900 il olan 1, yaşı 750 il olan 1, Horovlu kəndində yaşı 800 il olan 1 və İşıqlı kəndində yaşı 800 il olan 1 ədəd Şərq çinarı qorunurdu.

Təəssüf ki, bu gün erməni qəsbkarları tərəfindən təbiət abidəsi kimi qorunan çinar ağacları kəsilib məhv edilib.

Döyüşlərdə 90 nəfərə yaxın cəbrayıllı əsir və itkin düşüb, 180 nəfərdən çoxu isə şəhid olub. Onlardan 6 nəfəri "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb.




**1993-cü il avqustun 23-də ümumi sahəsi 139 393 hektar olan Füzuli rayonunun qərb hissəsindən (50 kənd) 125 368 hektar ərazi ermənilər tərəfindən zəbt edilib.**

Hələ sovet dövründə Füzuli rayonunda üzümçülük, taxılçılıq, hevandarlıq, baramaçılıq inkişaf etmiş kənd təsərrüfatı sahələrindən sayılıb. Füzuli rayonunda mişar daşı istehsalına yararlı 2 (Dövlətyarlı, Dilağar) əhəngdaşı, kərpic-kirəmit istehsalına yararlı Kürdmahmudlu gil, Quruçay qum-çınqıl qarışığı yataqları var.

Rayonun İşıqlı kəndində yaşı 500 il, yaşı 900 il olan 2, Böyük Bəhmənli kəndinin İranla sərhəd ərazisində yaşı 200 il olan 1, Seyidəhmədli kəndinin "İbə piri" adlanan sahəsində yaşı 1400 il, yaşı 550 il olan 2, Mandılı kəndində yaşı 400 il 1, yaşı 300 il olan 5 ədəd Şərq çinarı təbiət abidəsi kimi pasportlaşdırılıb və işğaladək mühafizə olunub.

İşğal nəticəsində X, XV əsrlərə aid 25 tarixi abidə işğal altında qalıb.

Füzuli rayonu müharibədə 1100-dən çox şəhid verib, 1450 nəfər rayon sakini əlil olub.

**Avqustun 31-də isə Ermənistan silahlı qüvvələri havadarlarının köməyi ilə Qubadlı rayonunu işğal edib. Rayon mərkəzi və 94 kənd yandırılıb.**

Qubadlının işğalı nəticəsində 445 min kvadratmetr mənzil fondu, 4 tibb ocağı, 6 uşaq bağçası, 61 ümumtəhsil məktəbi, 10 mədəniyyət evi, 24 klub, 1 tarix-diyarşünaslıq muzeyi, 60 kitabxana dağıdılıb. İşğalçılar 94 kənd və qəsəbəni, 205 mədəni-məişət obyektini, 12 tarixi abidəni talan ediblər. Aşağı Mollu və Həmzəli kəndlərinin hər birində 9, Əliquluuşağı kəndində 5, "Gavur dərəsi" deyilən ərazidə isə IV əsrə aid 1 qədim mağara, həmçinin V əsrdə tikilmiş Göy qala, Muradxanlıda "Qalalı" qalası, Xocamsaxlı kəndindəki tarixi abidələrin hamısı düşmən tapdağı altında qalıb.

Qubadlı uğrunda gedən döyüşlərdə 54 nəfər şəhid olub. Qarabağ müharibəsində isə Qubadlı ümumilikdə 238 şəhid verib, 146 nəfər əlil olub.

Döyüşlərdə qəhrəmanlıq göstərən 9 nəfər qubadlı sakini "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

**Respublikamızın müxtəlif bölgələrində yaşayan qaçqın və məcburi köçkünlərimiz üçün yüksək səviyyəli yaşayış şəraitinin yaradılmasına baxmayaraq, onlar böyük inam hissilə öz doğma ocaqlarına qayıdacaqları günü səbirsizliklə gözləyirlər. İnanırıq ki, işğal altında olan rayonlarımız yenidən öz əvvəlki qüdrətini, əzəmətini bərpa edəcək. Bu inamın, istəyin gerçəkliyi isə dövlətimizin qüdrətindən, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyətindən güc alır.**

# CANIMIZ VƏTƏNİNDİR!

DAXİLİ QOŞUNLARIN VETERANI, ŞAİR-PUBLİSİST ELXAN XƏZƏR

*Torpaq Vətənə dönməz,*
*mərdlər yurdu olmasa.*
*Dərdi vətəndaşların*
*ağrı-dərdi olmasa.*
*Hər övladı bir əsgər,*
*xalqı ordu olmasa.*
*Döyüşçüsü tükənsə,*
*bitsə – ardı olmasa.*
*El yolunda alış, yan.*
*Yanmasın Azərbaycan!*
*Qoyma yağı talasın*
*sərvətini, varını.*
*Qoru göz bəbəyi tək*
*namusunu, arını.*
*Göstər yada nifrəti,*
*dosta etibarını.*
*Qoy görsün bütün bəşər*
*əyilməz vüqarını.*
*Sən qazan ki, şərəf-şan,*
*Şanlansın Azərbaycan!*
*Yurda yiyə durmasan,*
*göz dikənlər çoxalar.*
*Tikə-tikə alınar,*
*parça-parça yox olar.*
*Elə sahiblik etsən*
*düşmən yanıb-yaxılar.*
*Hər silahlı qəhrəman*
*yad gözünə ox olar.*
*Haqq yolunda tök ki, qan*
*Yaşasın Azərbaycan!*

*Çəksin öz arxasınca*
*səni arzun, muradın.*
*Çatdırsın uğurlara*
*cəsarətin, inadın.*
*Hamıya bəyan olsun*
*biliyin, istedadın.*
*Adların arasında*
*daim seçilsin adın.*
*Sən qoy ki, yaxşı ad-san,*
*Tanınsın Azərbaycan!*
*Elə bilmə ki, torpaq*
*hər yoldan ötənindir.*
*Qaya kimi kök atıb*
*üstündə bitənindir.*
*Sübut et ki, bu diyar*
*yadın deyil, sənindir.*
*Canı yox, yurdu qoru –*
*Canımız Vətənindir!*
*Sayıq dayan ki, hər an*
*Qorunsun Azərbaycan!*
*Bir qurban hesabına*
*ömür sürür o biri.*
*«Öncə Vətəndir!» – deyib,*
*düşmən üstünə yeri!*
*Bil ki, şəhid olanlar*
*ölmür – diridir, diri.*
*Hər kəsin ürəyində*
*vardır onların yeri.*
*Oğullar verir ki can,*
*Canlansın Azərbaycan!*

## METODİKİ VƏSAİT

# DÖYÜŞ MÜHAFİZƏSİNDƏ, DÖYÜŞ NÖVBƏSİNDƏ, QAROVULDA VƏ DAXİLİ NARYADDA XİDMƏTİN NÜMUNƏVİ APARILMASI YÜKSƏK DÖYÜŞ HAZIRLIĞININ RƏHNİDİR

***Qeyd:** İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu məşğələyə hazırlaşarkən Daxili Xidmət Nizamnaməsinin, Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin, qoşun xidməti haqqında əmr və təlimatların tələblərini diqqətlə öyrənməli, öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə almalıdır.*

### 1. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin xüsusiyyətləri

Hərbi hissələrin və bölmələrin daimi yerləşmə yerlərində, düşərgələrdə və döyüş şəraitində yüksək döyüş hazırlıqlı olmalarını, qarşıya qoyulmuş döyüş tapşırıqlarını vaxtında və keyfiyyətlə yerinə yetirmələrini, həmçinin mühüm hərbi obyektlərin etibarlı mühafizəsini, bölmələrdə daxili qayda-qanunun saxlanmasını, bölmələrin silah və sursatının, əmlakının qorunmasını təmin etmək üçün döyüş və ümumqoşun nizamnamələrinin tələbləri əsasında müvafiq xidmətlər təşkil olunur. Bu xidmətlər öz xüsusiyyətlərinə görə fərqlənirlər:

*- daxili xidmət hərbi hissələrdə, bölmələrdə, parklarda, tədris müəssisələrində, düşərgələrdə, eləcə də qoşunların yerdəyişməsi zamanı günün nizam qaydalarına ciddi riayət olunması, daxili qayda-qanunun saxlanması, silah və sursatın, digər əmlakın qorunması üçün Silahlı Qüvvələrin Daxili Xidmət Nizamnaməsinə uyğun təşkil edilir;*

*- qarovul xidməti Döyüş Bayrağının, silahların, döyüş texnikasının, sursatların, partlayıcı maddələrin və digər əmlakın saxlanıldığı anbarların və s. hərbi obyektlərin etibarlı mühafizəsini və müdafiəsini təmin edir;*

*- döyüş mühafizəsi və döyüş növbətçiliyi hərbi hissə və bölmə qarşısında qoyulmuş döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmək, döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını təmin etmək üçün təşkil edilir.*

Hazırda Azərbaycan Respublikası ərazisinin bir hissəsinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğu bir dövrdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir sıra hərbi hissələri düşmənlə bilavasitə təmas vəziyyətində döyüş mühafizəsi və döyüş növbətçiliyi xidmətlərini aparır, torpaqlarımızın düşməndən etibarlı müdafiəsi kimi şərəfli, eyni zamanda çox çətin bir vəzifəni yerinə yetirir. Bu isə həmin hərbi hissələrin şəxsi heyətində yüksək döyüş hazırlığı, möhkəm nizam-intizam, öz postunda ayıq-sayıq xidmət aparmaq, qorxmazlıq, düşmənə nifrət, öz silahına, komandirlərinə inam kimi döyüşçü keyfiyyətlərinin tərbiyə olunmasını tələb edir. Döyüş mühafizəsi və döyüş növbətçiliyinə təyin olunan bölmənin, eləcə də hərbi qulluqçuların əsas vəzifələrindən biri təhkim olunmuş döyüş və texnikanın, silahların, avadanlıqların həmişə saz, döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazır vəziyyətdə saxlanılmasıdır. Döyüş mühafizəsinə təyin olunan hərbi qulluqçu bütün ekstremal şəraitlərdə özünü vəzifə borcunu yerinə yetirməyə hazırlamalıdır.

Bu vəzifələri nümunəvi yerinə yetirmək üçün görülən işlərin əsas məqsədi aşağıdakılardır:

*- bölmə və hissələrdə döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını, qoşun xidmətinin əhəmiyyətini hərbi qulluqçulara ətraflı izah etmək;*

*- hərbi qulluqçularda yüksək şüurluluq, əqidə möhkəmliyi, siyasi sayıqlıq, qarovul və qarnizon xidmətində, döyüş mühafizəsi və döyüş növbətçiliyində öz vəzifə borclarını dəqiq və qüsursuz yerinə yetirmək üçün şəxsi cavabdehlik hisslərini tərbiyə etmək;*

*- hərbi qulluqçuları qoşun xidmətinə dair sənədləri, təlimatları, hərbi nizamnamələri, Azərbaycan Respublikasının qanunlarını dərindən öyrənməyə yönəltmək;*

*- hərbi nizamnamələrin tələblərinin, qarovul və qarnizon xidməti qaydalarının, döyüş mühafizəsi və döyüş növbətçiliyinin aparılma qaydalarının pozulmasına görə hərbi qulluqçuların məsuliyyətini müəyyənləşdirən hüquq normalarını izah etmək;*

*- daxili xidmət, qarovul və qarnizon xidmətlərinin yerinə yetirilməsində qabaqcıl təcrübənin öyrənilməsini, ümumiləşdirilməsini və yayılmasını təşkil etmək, qoşunlarda mövcud ənənələri, xidmətdə hünər və qəhrəmanlıq nümunələrini təbliğ etmək;*

*- qarovula, daxili naryada, döyüş növbətçiliyinə və döyüş mühafizəsinə hazırlıq dövründə və xidmət edərkən, hərbçilərlə daha təsirli təlimat və tərbiyəvi xarakterli işlər aparmaq, qabaqcıl təcrübəni komandirlər (rəislər) və şəxsi heyət arasında yaymaq;*

*- naryadda olan hərbi qulluqçuların maddi-məişət və mədəni tələbatlarının öyrənilib təmin olunmasına qayğı göstərmək.*

**Mənəvi-psixoloji hazırlıq şöbəsi**

***(davamı gələn sayımızda)***

# MƏNALI ÖMÜR YAŞADI...



***Daxili Qoşunların veteranı, istefada olan polkovnik-leytenant Akif Mustafayevin uzun sürən ağır xəstəlikdən sonra vəfat etməsi xəbəri qoşunların şəxsi heyətini və veteranlarını sarsıtdı.***

***Bu il onun 60 yaşı tamam olacaqdı. O, uzun müddət idi ki, mübtəla olduğu ağır xəstəlikdən əziyyət çəkirdi, həkimlərin göstərdiyi səylər heç bir nəticə vermirdi. Bütün bu iztirablara əsl hərbçi iradəsi ilə dözürdü.***

A.Mustafayev maraqlı və mənalı bir həyat yaşayıb. O, 11 noyabr 1957-ci ildə Qubadlı rayonunun Dəmirçilər kəndində anadan olub. 1975-1977-ci illərdə sovet ordusu sıralarında əsgəri xidmət keçib. İlk əmək fəaliyyətinə isə 1978-ci ildə başlamışdı.

A.Mustafayev Azərbaycan Dövlət Universitetinin məzunu olaraq "hüquqşünas" ixtisasına yiyələnib. Bir müddət hüquq məsləhətxanasında vəkil kimi fəaliyyət göstərib.

Vətənimiz üçün çətin günlərdə - 1992-ci ildə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarına hərbi xidmətə qəbul olunub. Daxili Qoşunlarda təqvimlə 23 il,1 ay, 24 gün hərbi xidmətdə olan A.Mustafayev Daxili Qoşunların Baş İdarəsində (DQBİ) Hüquq şöbəsinin zabiti, hərbi hüquqşünas vəzifəsindən DQBİ-də Şəxsi Heyət üzrə İdarənin Mənəvi-psixoloji hazırlıq şöbəsində Hüquq xidmətinin rəisi vəzifəsinədək yüksəlib. Hərbi xidmətinin böyük bir hissəsi DQBİ-nin tərkibində keçsə də, 1993-cü ildə hərbi hüquqşünas kimi döyüş bölgəsində də xidmət edib. Müharibənin ağrı-acılı gerçəkliklərini öz gözü ilə görüb.

A.Mustafayev peşəkar və təcrübəli hüquqşünas kimi öz xidmət sahəsi üzrə səmərəli fəaliyyət göstərərək, Daxili Qoşunların nüfuz və mənafeyinin qorunması, şəxsi heyətin hüquqi maariflənməsi yönündə əməyini əsirgəməyib.

O, 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalına layiq görülüb. Bundan başqa, "Qüsursuz xidmətə görə" medalının hər üç dərəcəsilə təltif olunub. Həmçinin, digər medallar və Daxili Qoşunların "Xidmətdə fərqləndiyinə görə" döş nişanı ilə mükafatlandırılıb.

A.Mustafayev Daxili Qoşunların şəxsi heyətinin hörmətini qazanmış zabitlərdən biri idi. Vətənpərvərliyi və vəzifə borcuna vicdanla yanaşması ilə hərbi qulluqçulara örnək olan zabit gündəlik həyatda sadəliyi və təvazökarlığı ilə fərqlənirdi.

O, ata yurdu Qubadlının həsrətilə yaşayırdı.

Hərbi xidmətdə olarkən xəstəliyinin müalicəsi və sağlamlığının bərpası üçün Daxili İşlər Naziri və Daxili Qoşunlar Komandanı tərəfindən ona lazımi qayğı göstərilmişdi. Qardaş Türkiyədə əməliyyat olunmuş və müalicə kursları keçmişdi.

2014-cü ildə hərbi xidmətdən istefaya çıxdıqdan sonra həmişə qoşunların həyatı ilə maraqlanır, silahdaşlarının xoş soraqlarına sevinirdi.

Bu həyatda hər birimizin bir alın yazısı var. İnsanın dünyasını dəyişməsi onun iradəsi xaricində baş verən bir sonluqdur. Əsas məqam insanın bu həyatda nə kimi iz qoyması, ölümündən sonra necə xatırlanmasıdır.

A.Mustafayev kimi ləyaqətli ömür yaşamış insanlar və Vətəninə şərəflə xidmət etmiş zabitlər heç zaman unudulmur.

**Məzarı nurla dolsun, Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Hacızadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
İlham ƏLİYEV

ƏSGƏR

№ 16 (507)
15 avqust
2017-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# PREZİDENT İLHAM ƏLİYEVİN VƏ PREZİDENT QURBANQULU BERDİMƏHƏMMƏDOVUN TƏKBƏTƏK GÖRÜŞÜ OLUB

***Avqustun 8-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun təkbətək görüşü olub.***

**AZƏRTAC** xəbər verir ki, dövlət başçıları görüşdə çıxış etdilər.

**Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:**

-Hörmətli Qurbanqulu Məlikquluyeviç.

Azərbaycana xoş gəlmisiniz. Sizi səmimiyyətlə salamlayıram. Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfəriniz Türkmənistan-Azərbaycan dostluq, qardaşlıq əlaqələrinin inkişafında çox mühüm addım olacaq.

Bizim xalqlarımızı tarix birləşdirir. Biz əsrlər boyu bir yerdə yaşamışıq, dostluq etmişik, qardaşlıq şəraitində yaşamışıq. Bu gün isə iki müstəqil dövlət kimi uğurla inkişaf edirik. Sizin səfəriniz bizim əlaqələrimizə yeni dinamika gətirəcək. Biz bir sıra sahələrdə çox uğurlu əməkdaşlıq edirik və bu əməkdaşlıq dərinləşəcək. Siyasi, iqtisadi, humanitar, mədəniyyət, nəqliyyat və digər sahələrdə inkişaf və əməkdaşlıq üçün çox yaxşı imkanlar var.

Sizi bir daha səmimiyyətlə salamlayıram, "Xoş gəlmisiniz" deyirəm. Əminəm ki, səfəriniz çox uğurlu olacaq.

x x x x

**Türkmənistan Prezidenti Qurbanqulu BERDİMƏHƏMMƏDOV dedi:**

-Əziz qardaşım, icazə verin, Azərbaycana səfərə dəvət olunduğumuza görə bizim bütün nümayəndə heyəti adından Sizə minnətdarlığımı bildirim.



Bu səfər böyük əhəmiyyət kəsb edir. Siyasətin ən mühüm postulatlarından biri qonşularla yaxşı münasibətləri saxlamaqdır. Bu münasibətlər müxtəlif istiqamətlər üzrə çoxtərəfli əməkdaşlığın və qarşılıqlı fəaliyyətin necə reallaşdırılmasından asılıdır.

Müasir dövrdə Türkmənistan-Azərbaycan münasibətləri özünün yeni mərhələsini yaşayır, yeni məzmun kəsb edir. Bu, həm siyasətdə, həm iqtisadiyyatda, həm də mədəni-humanitar sahədə müşahidə olunur. Xüsusi qeyd etmək lazımdır ki, həm Türkmənistan, həm də Azərbaycan dünyada təhlükəsizlik, firavanlıq, sabitlik və inkişaf üçün hər şeyi edir. Bizim ölkələrimiz bu siyasəti həyata keçirmək üçün Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarda qarşılıqlı fəaliyyət göstərir, bir-birini dəstəkləyirlər.

Biz Sizə minnətdarıq ki, Siz Türkmənistanın neytral statusa əsaslanan siyasətini həmişə dəstəkləyirsiniz. Ticari-iqtisadi münasibətlərə gəldikdə, bu gün həm Türkmənistan, həm də Azərbaycan energetika, nəqliyyat və digər sahələrdə iri layihələri reallaşdırmaqla nəinki regionda, həm də dünya miqyasında xüsusi yer tutur. Bu, təkcə iki ölkənin, yalnız regionun inkişafına töhfə verməklə məhdudlaşmır, ölkələrimizin reallaşdırdığı layihələr böyük əhəmiyyət kəsb edir və dünyada da müəyyən rol oynayır.

Mədəni-humanitar sahəyə gəldikdə, Siz düzgün olaraq qeyd etdiniz ki, bizim dillərimizin, tariximizin, mənəvi dəyərlərimizin kökləri əsrlərin dərinliklərindən başlanır, onlar bir-birinə yaxın və oxşardır. Bütün bunları qoruyub saxlamaq və növbəti nəsillərə çatdırmaq mühüm məqamdır.

Əziz qardaşım, hörmətli cənab Prezident, mən Sizə dövləti fəaliyyətinizdə, Türkmənistan-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə, Azərbaycanın firavanlaşmasına yönəlmiş fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

Fürsətdən istifadə edib, Sizi Aşqabadda keçiriləcək qapalı məkanlarda döyüş sənəti üzrə V Asiya Oyunlarının təntənəli açılış mərasimində iştiraka dəvət edirəm. Açılış sentyabrın 17-də olacaq. Sizi və Sizin nümayəndə heyətinin üzvlərini böyük ehtiramla dəvət edirəm.

Qardaş Azərbaycan xalqına inkişafda böyük uğurlar və firavanlıq arzu edirəm. Gözəl ölkənizə səfərə dəvət olunduğumuza görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm.

# Daxili İşlər Nazirliyi mətbuat xidmətinin məlumatı



***Avqustun 8-də Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun başçılıq etdiyi nümayəndə heyətinin tərkibində respublikamızda rəsmi səfərdə olan bu ölkənin Daxili İşlər Naziri, polis general-mayoru İsgender Mulikovu qəbul edib.***

Qonağı salamlayan nazir xalqlarımız arasında çoxəsrlik tarixi dostluq və qardaşlıq əlaqələrinin mövcudluğunu, hər iki prezidentin - cənab İlham Əliyevin və cənab Qurbanqulu Berdiməhəmmədovun siyasi iradəsinə uyğun olaraq əməkdaşlığın bütün sahələrdə dərinləşdiyini xüsusi qeyd edib. Bu gün Bakıda aparılan yüksək səviyyəli danışıqların, dövlət başçılarının iştirakı ilə "Azərbaycan Respublikası ilə Türkmənistan arasında Strateji tərəfdaşlıq haqqında Bəyannamə"nin, müxtəlif sahələri əhatə edən hökumətlərarası sənədlərin, o cümlədən "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Türkmənistanın Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında" Sazişin imzalanmasının, xüsusən adıçəkilən bəyannamədə əsas faktorlardan və elementlərdən biri kimi təhlükəsizlik məsələlərinin öz əksini tapmasının əhəmiyyətindən danışan R.Usubov ölkələrimiz arasındakı mehriban qonşuluq və strateji tərəfdaşlıq münasibətlərinin keyfiyyətcə yeni səviyyəyə qalxmasından, hərtərəfli inkişaf və inteqrasiya proseslərinin daxili işlər orqanlarını da əhatə etməsindən məmnunluğunu bildirib.

Səmimi qəbula və ətraflı məlumata görə təşəkkür edən cənab İsgender Mulikov imzalanmış sazişin iki ölkənin Daxili İşlər nazirlikləri arasında əməkdaşlığın daha da genişləndirilməsinə yeni təkan və impuls verəcəyinə əminliyini, Türkmənistan tərəfinin bu istiqamətdə öz səylərini əsirgəməyəcəyini vurğulayıb.

Görüşdə əməkdaşlığın prioritet istiqamətləri və gələcək perspektivləri, beynəlxalq terrorçuluq, narkotiklərin qanunsuz dövriyyəsi, habelə transmilli mütəşəkkil cinayətkarlığın digər növləri ilə mübarizə, informasiya mübadiləsinin intensivləşdirilməsi, həmçinin yeni imzalanmış sazişin müddəalarından irəli gələn öhdəliklərin icrası və qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

# DAXİLİ QOŞUNLARDA XİDMƏTƏ YENİ QƏBUL EDİLMİŞ ÇAĞIRIŞÇILARIN HƏRBİ ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB

***Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb.***



***Avqustun 12-də Daxili Qoşunların Bakı şəhərinin Binəqədi rayonunda yerləşən hərbi hissəsində xidmətə yeni qəbul edilmiş əsgərlərin hərbi andiçmə mərasimi keçirilib.***

Tədbirdə Daxili Qoşunlar Komandanının müavini – Maddi-Texniki Təminat İdarəsinin rəisi general-mayor Fəxrəddin Səmədov, Veteranlar Şurasının üzvləri və əsgər valideynləri iştirak ediblər.

Mərasim Milli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Daxili Qoşunların Nümunəvi-göstərici hərbi orkestrinin müşayiəti ilə Dövlət himni ifa edilib.

Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Sonra hərbi hissə komandiri polkovnik Məzahir Ağayev çıxış edərək əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına sadiq olacaqlarına and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələrinin tələblərini xatırladıb.

General-mayor F.Səmədov çıxış edərək Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbrikini çatdırıb. Təbrikdə hər bir əsgərin Vətənə şərəflə xidmət edəcəyinə, Azərbaycan Respublikasının qanunlarına, hərbi anda və nizamnamələrin tələblərinə ciddi riayət edəcəyinə, eləcə də yüksək döyüş hazırlığına və möhkəm nizam-intizama malik olacaqlarına əminlik ifadə olunub.

Daha sonra o, hərbi andı qəbul edən əsgərləri səmimi qəlbdən təbrik edərək, onlara xidmətlərində müvəffəqiyyətlər arzulayıb. Qeyd olunub ki, hər bir hərbi qulluqçu Vətənə, xalqa, dövlət və dövlətçiliyimizə sonsuz sədaqətlə xidmət etməlidir. Vətənə sevgi məhz vətənpərvərlikdən başlayır. Vətənpərvərlik isə, ilk növbədə torpağına bağlılıq, tarixinə və milli-mənəvi dəyərlərə hörmət deməkdir.

Mərasim şəxsi heyətin sıra meydanından təntənəli keçidi ilə başa çatıb.

Qeyd edək ki, yeni xidmətə qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimi qoşunların Bakı qarnizonunda yerləşən daha iki hərbi hissəsində də təntənəli surətdə keçirilib.

**Mətbuat xidməti**

# HƏRBİ QULLUQÇULARIMIZ KURSU MÜVƏFFƏQİYYƏTLƏ BAŞA VURUBLAR

***İyul ayının 2-dən 19-dək Çin Xalq Respublikasının Hebey vilayətinin Lanfan şəhərində yerləşən Silahlı Polis Qüvvələri Akademiyasında "Terrorçuluğa qarşı mübarizə - 2017" adlı kurs keçirilib.***

Kursda Daxili Qoşunların 5 nəfər hərbi qulluqçusu - polkovnik-leytenant Mərdan Əhmədov, mayor Elşən Poladov, kapitan Rəşad Məmmədov, kapitan Emin Hüseynov və kapitan Şamil Niftiyev olmaqla, Daxili İşlər Nazirliyindən, ümumilikdə, 14 nəfər iştirak edib.

18 gün davam edən kursda Çin Xalq Respublikasının inkişaf mərhələləri, Çin Xalq Respublikasının güc strukturlarının terrorizmə qarşı mübarizə metodları, terrorizmə qarşı mübarizə və bu istiqamətdə region ölkələri ilə əməkdaşlıq, girovların azad olunması əməliyyatı, metrolarda baş verə biləcək terror aktlarının qarşısının alınması, Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində terrorizmə qarşı mübarizə, psixoloji hazırlıq, kollektiv ruhunun aşılanması və digər mövzularda geniş brifinqlər verilib.

Nəzəri dərslərdən sonra səhra şəraitində praktiki məşğələlər keçirilib. Kursu müvəffəqiyyətlə başa vuran hərbi qulluqçularımıza diplomlar təqdim olunub.

Qeyd edək ki, diplomların təqdimolunma mərasimində Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Mətin Mirzəyev də iştirak edib.



**baş leytenant X.Hacızadə**

## GENERALLARIMIZ...

### SƏMƏD BƏY RƏFİBƏYLİ

***Səməd bəy Məşədi bəy oğlu Rəfibəyli haqqında çox az məlumatlar qalıb. Tədqiqatçı-jurnalist Şəmistan Nəzirlinin arxiv sənədlərinə istinadən topladığı məlumatlarda qeyd olunur ki, o, 1892-ci ildə qədim Gəncənin Balabağban qəsəbəsində anadan olub. 1916-cı ildə Tiflis kadet korpusunu bitirib. İlk hərbi xidmətə yeddinci Qafqaz sərhəd alayında başlayıb. 1918-ci ilin yanvarından yeni yaranan Müsəlman korpusunda birinci Bakı atıcı polkunda rota komandiri kimi bolşevik-daşnak dəstələrinə qarşı vuruşub.***



Poruçik Səməd bəy 1918-ci il iyulun 2-də əla xidmətinə görə ştabs-kapitan rütbəsinə layiq görülür. Gəncədə olan Nuru paşanın təqdimatı ilə Azərbaycan dəmir yolunun müvəqqəti komissarı təyin olunur.

Respublika müdafiə nazirinin əmrilə 1919-cu ilin fevralında birinci Cavanşir polkunu və Lənkəran ehtiyat alayını təşkil edir.

Hərb naziri general Səməd bəy Mehmandarovun və müavini Əliağa Şıxlinskinin əmr və raportlarında Səməd bəy Rəfibəyli bilikli, enerjili və qoçaq komandir kimi xarakterizə edilir.

Podpolkovnik Səməd bəy Rəfibəylinin birinci Cavanşir piyada polku 1920-ci ilin mart-aprel aylarında Xankəndində və Şuşada erməni daşnaklarına qarşı mərdliklə vuruşub.

Bolşevik istilasından sonra Türkiyəyə mühacirətə gedən Səməd bəy Rəfibəyli hərbi fəaliyyətini dayandırmayıb.

Səməd bəy Türkiyədə siyasi mühacir sayılsa da, öz hərbi istedadı və komandirlik qabiliyyəti ilə seçilib və göstərdiyi xidmətlərə görə ona paşa (general) rütbəsi verilib. O, Türkiyənin düşmənləri ilə məşhur Qars və Sarıqamış savaşlarında xüsusilə fərqlənib.

İstanbul süvari dəstəsinin 2-ci şöbəsinin rəisi olan Səməd bəyi böyük Kamal Atatürk çox sevir və qiymətləndirirdi. Atatürk döyüşlər zamanı göstərdiyi cəsurluğa görə, Səməd bəylə maraqlanır və onunla tanış olduqdan sonra bir qədər heyrətlənərək deyir: "Bu cür gənc yaşda polkovnik olmaq hər kəsə nəsib olmur. Türk gəncliyi nümunəni Səməd bəydən götürməlidir". Səməd bəy Rəfibəyli Türkiyənin birinci dərəcəli "İstiqlal" ordeni ilə təltif olunub. 1948-ci ildə isə Türkiyə Respublikasının Ali Hərbi Şurası Səməd bəyi hərbi xidmətlərinə görə türk ordusunun paşası (tam general) rütbəsi ilə təltif edib. Çox sayıldığı və hörmətli olduğu üçün Sayqın, daha doğrusu, Səməd paşa Əbdülsəməd bəy Sayqın adlandırılırdı.

Xalqımızın bu istedadlı sərkərdə oğlu Türkiyədə paşa hərbi rütbəsinə layiq görülən ilk azərbaycanlıdır. Hərbi xidmətinin sonlarında Ədirnə və Qarsdakı Türkiyə qoşunlarının komandanı vəzifəsinə yüksələn Səməd bəy Rəfibəyli 1980-ci il oktyabrın 20-də ömrünün 88-ci ilində İstanbulda vəfat edib və orada da dəfn olunub. Hazırda Səməd bəyin övladları və qohumları İstanbulda, Bakıda və Gəncədə yaşayırlar.

Beləliklə, həmyerlimiz, Azərbaycan xalqının milli mübarizə tarixində önəmli yer alan Rəfibəylilər nəslindən olan Səməd bəy həm ölkəmizdə, həm də qardaş Türkiyədə ləyaqətlə xidmət etmiş, milli məsələlərdə prinsipial mövqeyi ilə fərqlənmiş, öz xalqını və mənsub olduğu nəsli layiqincə təmsil etmişdir.

Gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyələndirilməsi baxımından Səməd bəy kimi hərbi xadimlərimizin keçdiyi ömür yolunu öyrənmək hər bir vətəndaşımız üçün faydalı, eyni zamanda Vətən qarşısında bir borcdur!

# NƏQLİYYAT VASİTƏLƏRİNİN SAZLIĞI DÖYÜŞ HAZIRLIĞININ YÜKSƏK SƏVİYYƏDƏ SAXLANILMASININ ƏSAS GÖSTƏRİCİLƏRİNDƏNDİR

*XİDMƏTDƏ QAZANILAN NAİLİYYƏTLƏR İNTİZAMDAN İRƏLİ GƏLİR*

***67987 saylı hərbi hissənin nümunəvi və peşəkarlığı ilə seçilən xidmətlərindən biri də avtomobil və zirehli texnika xidmətidir.***

Xidmət rəisi mayor Ramazan Əliyev söhbət zamanı döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında və istənilən döyüş tapşırığının uğurla yerinə yetirilməsində avtomobil xidmətinin xüsusi rolunun olduğunu nəzərə çatdırdı. Qeyd etdi ki, nəqliyyat vasitələrinin sazlığı, sürücülərin peşəkarlığı fəaliyyətimizdə əsas amillərdəndir.

Mayor R.Əliyev xidmətin Daxili İşlər Nazirinin müvafiq əmrlərinin tələbləri əsasında təşkil olunduğunu söylədi: "Səhər yerbəyer mərasimindən sonra ərazidə maşınların saxlanc yerləri nəzərdən keçirilir. Parka daxil olan sürücü heyəti dəstələrin texnikləri tərəfindən əraziyə gətirilir və avtomobillərə texniki qulluq göstərən hərbi qulluqçuların təhlükəsizlik qaydaları ilə tanış olmaları barədə siyahılar təqdim olunur. Yalnız bundan sonra sürücülərə gün ərzində təhkim olunmuş avtomobil və zirehli texnikalara texniki qulluğun göstərilməsi barədə tərəfimdən müvafiq fərdi tapşırıqlar verilir".

Hər bir avtomobil xəttə çıxmazdan əvvəl maşın böyüyünün və sürücünün sənədləri park növbətçisi tərəfindən, maşının sazlığı isə texniki nəzarət məntəqəsinin rəisi tərəfindən yoxlanılır. Bu zaman xidmət rəisi də, öz növbəsində, maşın böyüyü və sürücünü yol hərəkəti qaydalarına ciddi riayət etmələri barədə təlimatlandırır. Xətdən qayıdan nəqliyyat vasitəsi park növbətçisi və TNM rəisinə təqdim olunduqda, bir daha vəziyyəti yoxlanılır, avtomobil yanacaqdoldurma məntəqəsindən keçirilərək, yuyulub, saxlanca qoyulur. Həmçinin gündəlik olaraq park xidmətinin təşkil olunub aparılması və nəqliyyat vasitələrinə texniki qulluğun göstərilməsi barədə xidmət rəisi tərəfindən nəzarət edilir, təhlükəsizlik qaydaları fərdi olaraq çatdırılır. İldə bir dəfədən çox olmayaraq, Daxili Qoşunların Baş İdarəsinin Avtmobil və zirehli texnika şöbəsinin zabitləri tərəfindən hərbi hissəyə təhkim olunmuş nəqliyyat vasitələrinə illik texniki baxışın keçirilməsi təmin olunur.

Bu günümüzdə yol-nəqliyyat hadisələrinin qarşısının alınması Daxili Qoşunlar Komandanlığının ən çox diqqət yetirdiyi məsələlərdən biri olduğu üçün, xidmət rəisi mayor R.Əliyev tərəfindən mütəmadi olaraq həm sürücülər, həm də fərdi avtomobil sahibləri olan hərbi qulluqçularla nəqliyyat vasitələrinin istismarı, yol hərəkəti qaydaları mövzularında məşğələlər keçirilir. Bunun üçün ilk olaraq hissə və bölmələrdə möhkəm qayda-qanunun saxlanmasına, texnika təhkim edilmiş şəxsi heyətə yüksək məsuliyyət hissinin aşılanmasına diqqət yetirilir.

Bu məşğələlər, eyni zamanda, Bakı Şəhər Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşları ilə birgə də təşkil olunur, şəxsi heyətin sənədləri və avtomobillərin texniki vəziyyəti yoxlanılır. Nəticə etibarilə görülən bütün işlər yol hərəkəti qaydalarının pozulma hallarının qarşısının alınmasına səbəb olur. Bütün görülən işlərin nəticəsidir ki, 2017-ci ilin ötən dövründə hərbi hissənin sürücüləri tərəfindən heç bir yol-nəqliyyat hadisəsi törədilməyib.

Vəzifə borclarının icrasına vicdanla yanaşan, zabit kimi daim öz bilik və bacarıqlarını təkmilləşdirən mayor R.Əliyev avtomobil xidmətinin çətin, eyni zamanda spesifik sahə olduğunu qeyd etdi: "İstənilən sahədə uğurlu nəticənin əldə olunması üçün bütün rəhbər sənədlərin tələblərinə ciddi əməl etmək lazımdır. Bu gün Daxili Qoşunların zabiti olduğum üçün həqiqətən qürur hissi keçirir və komandanlıq tərəfindən verilən bütün tapşırıqların icrasına hər zaman hazıram".





**leytenant N.Ağayeva**

# ŞƏXSİ HEYƏTİN SAĞLAMLIQ DURUMU ETİBARLI ƏLLƏRDƏDİR

***Daxili Qoşunların hərbi hissələrində şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb personalının əməyi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan hissələrdə hərbi qulluqçuların döyüş hazırlığının yüksəldilməsi istiqamətində səylə çalışan tibb personalının xidməti fəaliyyətini vaxtaşırı qəzetimizin səhifələrində işıqlandırırıq.***

Bu günlərdə 99713 saylı hərbi hissədə olarkən, məhz tibb personalının xidməti haqqında yazmaq qərarına gəldim. Hərbi hissənin tibb xidmətinin rəisi, tibb xidməti kapitanı Emil Fərmanlı öz işini "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında" Təlimata əsasən qurur. O, xidmətin fəaliyyətindən bəhs edərkən bildirdi ki, hərbi hissə komandiri tərəfindən təsdiq olunmuş günün nizam qaydalarına uyğun olaraq, tibb məntəqəsinin və lazaretin gün nizamı tərtib edilmişdir. Həmin gün nizamına əsasən, xəstələrin ambulator qəbulu, stasionar xəstələrin müvafiq təyinatlarının icrası, qarovul xidmətinə cəlb olunan hərbi qulluqçuların gündəlik tibbi müayinələrinin təşkili, yeməkxanada sanitar-gigiyenik vəziyyətin yoxlanılması təşkil olunur.

Hərbi hissənin tibbi təminatının təşkilinə, tibb məntəqəsinin vəziyyətinə və işinə, bu xidmətin şəxsi heyətinin öz ixtisası üzrə hazırlığına, döyüş və ictimai-siyasi hazırlığına, hərbi intizamına və mənəvi vəziyyətinə cavabdehlik daşıyan tibb xidməti kapitanı E.Fərmanlı qeyd etdi ki, xidmət rəisi kimi əsas vəzifəsi şəxsi heyətin sağlamlığının qorunması, müraciət edən hər bir hərbi qulluqçuya tibbi yardımı keyfiyyətli surətdə həyata keçirməkdən ibarətdir: "Kollektivimiz bir devizlə, "Sağlam bədəndə sağlam ruh olar" prinsipi ilə xidmət aparır. Sağlamlığın əsasında isə şəxsi gigiyenanın gözlənilməsi, düzgün qidalanma, hər hansı bir narahatlığa dərhal reaksiya verərək, həkimə müraciət etmək durur. Məhz bu mövzuda bütün hərbi qulluqçularla tibb xidməti tərəfindən maarifləndirmə işləri aparılır".

Hərbi hissədə iyul ayında hərbi xidmətə qəbul olunmuş əsgərlərin tibbi təminatı üzrə qarşıya qoyulmuş tapşırıqlar keyfiyyətlə yerinə yetirilib.

Həmçinin ölkəmizdə keçirilən beynəlxalq əhəmiyyətli tədbirlər zamanı hərbi hissənin şəxsi heyətinin qarşıya qoyulmuş tapşırıqları uğurla yerinə yetirməsində tibb xidmətinin də özünəməxsus rolu var. Belə ki, son dəfə keçirilən "Formula-1 Azərbaycan Qran Pri" yarışlarında 99713 saylı hərbi hissənin tibb xidmətindən onlarla sanitar-atıcı, sanitar-təlimatçı və müvafiq sayda həkimlər xidmətə cəlb olunmuşdu. Həmin personal tərəfindən nəinki hərbi qulluqçulara, eyni zamanda mülki vətəndaşlara da (könüllülər-N.A) ilkin tibbi yardım mövzusunda müvafiq təlimatlar verilmişdi.

Tibb xidmətinin işindən danışarkən təkcə xidmət rəisinin deyil, peşəkar personalın uğurlu fəaliyyətini qeyd etmək lazımdır. Kollektivin uğurlu fəaliyyəti nəticəsində hərbi qulluqçulara diqqət və qayğı günü-gündən artır. Peşəkar personal: həkim-terapevt, tibb xidməti baş leytenantı Günel Nəsirli, həkim-stomatoloq, tibb xidməti leytenantı Samir Aslanlı, aptek rəisi gizir Günay Rzayeva, feldşer gizir Diana Qarakişiyeva və sanitar-təlimatçı, dezinfektor baş çavuş Aqil Hüseynov öz işlərinin öhdəsindən bacarıqla gəlirlər. Peşəkarlıq vərdişlərinin təkmilləşdirilməsi istiqamətində tibb personalı hər mövsümün aktual mövzuları barəsində nəzəri və praktiki məşğələlərə cəlb olunur. Nəticə etibarilə məqbulların qəbulu zamanı yüksək peşəkarlıq göstərənlər müvafiq qaydada mükafatlandırılır.







Son olaraq qeyd etmək lazımdır ki, hazırda 99713 saylı hərbi hissənin şəxsi heyətinin sağlamlıq durumunun qorunub saxlanılmasında hissənin tibb xidməti bütün zəruri tədbirləri yüksək peşəkarlıqla həyata keçirir. Bir sözlə, hərbi qulluqçuların sağlamlıq durumu əmin əllərdədir.

**leytenant N.Ağayeva**



## ŞƏHİDLƏRİMİZ

# VƏTƏN EŞQİ İLƏ DÖYÜNÜRSƏ ÜRƏK...

Daxili Qoşunların respublikamızın ərazi bütövlüyü uğrunda keçdiyi şərəfli döyüş yolu fədakarlıq nümunələri ilə zəngindir. Erməni işğalçılarına qarşı ölüm-dirim savaşında biz xalq qeyrətini çəkən, ürəyi vətən eşqi ilə döyünən, son nəfəsinədək hərbi anda sadiq qalan cəsur hərbi qulluqçularımızı itirmişik. Leytenant Pələngov Bünyadəli Qulam oğlu da şəhidlik zirvəsinə ucalmış hərbi qulluqçularımızdan biridir. O, 4 aprel 1957-ci ildə Lerik rayonunun Züvüç kəndində anadan olub. Yaşasaydı, öz doğmalarının əhatəsində bu il 60 yaşını qeyd edəcəkdi. Bu gün onu yaşadan unudulmaz xatirələrdir.

Şəhid zabitin mənalı ömür yolu bugünkü və gələcək zabitlər üçün örnəkdir. Həyat onu çox sınaqlara çəkmişdi. Bu sınaqlar onu xaraktercə mətinləşdirmişdi.

1964-1974-cü illərdə B.Pələngov orta məktəbdə oxuyub. Məktəbdə aşağı sinifdə oxuyarkən anası dünyasını dəyişib. Ana itkisinin ağrı-acısı onu heç zaman tərk etməyib.

B.Pələngov 1975-1977-ci illərdə Sovet ordusu sıralarında hərbi xidmətdə olub. Azərbaycandan çox-çox uzaqlarda-Arxangelsk vilayətində hərbi xidmət keçib. Hərbi xidmətdən qayıtdıqdan sonra bir müddət Lerik rayonu Səməd Vurğun adına üzümçülük sovxozunda işləyib. 1979-1984-cü illərdə isə Züvüç kəndindəki orta məktəbdə laborant kimi çalışıb. 1983-cü ildə o, artıq Bakıda Mirzə Fətəli Axundov adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda qiyabi olaraq ali təhsil almağa başlamışdı. 1988-ci ildə institutu bitirərək, rus dili və ədəbiyyatı müəllimi ixtisasına yiyələnmişdi.

B.Pələngovun sonuncu mülki işi "Bakı Mühəndistikinti" Birliyində fəhlə olub. O, burada 1985-ci ildə işləyib. Həmin ilin avqust ayının 7-dən etibarən SSRİ Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarında müddətdən artıq hərbi xidmətə qəbul olunub. Beləliklə, onun həyatında yeni mərhələ başlayıb. Həyatda bəzən insan öz ixtisası üzrə karyerasını qurmur, yeni bir sahədə, xarakterinə və dünyagörüşünə uyğun başqa bir müstəvidə də bilik və bacarıqlarını sınamaq istəyir. Müəllim və hərbçi müqəddəs peşələrdir. O, bu peşələrin hər birinə rəğbət bəsləyirdi.

Kiçik çavuş hərbi rütbəsində müddətdən artıq hərbi xidmət keçdiyi 6500 saylı hərbi hissənin (hazırda Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin tərkibindədir – Y.A.) 7-ci bölüyündə nəzarətçi vəzifəsinə təyin olunub. 1987-ci ildə isə gizirlər məktəbini bitirmişdi. Həmin il sentyabrın 24-də ona gizir hərbi rütbəsi verilib. 10.10.1988-14.03.1989-cu illərdə 6500 saylı hərbi hissənin 7-ci bölüyünün starşinası (başçavuşu) vəzifəsində xidmət edib.



*leytenant Bünyadəli Pələngov*

Daha sonra fəaliyyətini SSRİ Daxili Qoşunlarının 3645 saylı hərbi hissəsində davam etdirərək, ərzaq xidməti rəisinin köməkçisi vəzifəsinə irəli çəkilib. 1991-ci il aprelin 16-dan isə SSRİ Daxili Qoşunlarının 5456 saylı hərbi hissəsinə keçirilərək, kinoradioqovşaq rəisi vəzifəsinə təyin edilib. Həmin hərbi hissədə ona zirehli transpartyorlar bölüyündə taqım komandiri vəzifəsi də həvalə olunub. 1991-ci ilin sentyabr ayının 30-da SSRİ Daxili Qoşunlarının 7535 saylı hərbi hissəsində ərzaq xidmətinin rəisi vəzifəsinə yüksəlib, bununla ona növbəti dəfə etimad göstərilib.

Göründüyü kimi, onun SSRİ Daxili Qoşunlarının tərkibində hərbi xidməti ayrı-ayrı hərbi hissələrdə keçib və fəaliyyəti çoxşaxəliliyi ilə fərqlənib. Həmin illərdə qazandığı təcrübədən bəhrələnərək, 1991-ci ilin dekabr ayında Azərbaycan Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının formalaşmasında yaxından iştirak edib. Bu çətin və gərgin prosesdə öz əməyini əsirgəməyib. 1991-ci il onun həyatında bir tərəfdən hərbi xidməti üzrə yeni mərhələnin başlanmasının doğurduğu coşqu, digər tərəfdən, atası Qulam Pələngovun vəfat etməsinin sarsıntısı ilə dərin iz qoyub. Həyat acımasız olur, bəzən insanın sevincli günlərinin üzərini qara buludlar alır...

O, respublikamızın Daxili Qoşunlarının ilk zabitlərindən biri kimi də həmişə xatırlanacaq. 1992-ci il fevralın 8-də B.Pələngova leytenant hərbi rütbəsi verilib.

7535 saylı hərbi hissədə (hazırda fəaliyyət göstərmir- Y.A.) Daxili Qoşunların ilk əsgərlərindən biri kimi xidmət edərkən mən leytenant B.Pələngovu vətənpərvər ruhlu, qətiyyətli bir zabit kimi tanımışam. Şəxsi heyət arasında böyük nüfuzu var idi. Hərbi hissənin tədbirlərində fəal iştirak edirdi. Yadımdadır, ilk dəfə Azərbaycan dilində hərbi and içdikdən sonra əsgərlərin sırasına yaxınlaşıb "Sizinlə fəxr edirəm"-dedi. Həmişə bizə hərbi xidmətlə bağlı dəyərli tövsiyələrini verirdi.

Leytenant B.Pələngov 1990-1991-ci illərdə 3645 saylı hərbi hissədən Naxçıvan Muxtar Respublikasına bir neçə dəfə ezam olunub. Burada Ermənistanla sərhəddə, Sədərək istiqamətində torpaqlarımızın müdafiəsində dayanıb.

Həmişə ön cəbhəyə can atan dəyanətli zabit özünü səngərlərdəki döyüşçülərdən ayırmazdı. Cəsarətli və qayğıkeş olması onu döyüşçülərin gözündə ucaldırdı.

1992-ci ilin birinci yarımilliyində 7535 saylı hərbi hissədən Ağdam cəbhə bölgəsinə dəfələrlə ezam olunmuşdu. Ağdamın Papravənd, Qalayçılar kəndlərinin müdafiəsində, Əsgəran istiqamətindəki Aranzəminli, Pircamal,Naxçıvanik kəndləri uğrunda döyüşlərdə o, düşmənin azğınlığının şahidi olmuş, torpaqlarımızın işğalına son qoymaq amalı ilə vuruşmuşdu.

1992-ci ilin iyun ayında Aranzəminli, Pircamal, Naxçıvanik kəndləri ətrafında qızğın döyüşlər səngimirdi. Belə ağır vəziyyətdə döyüşçülərimiz arasında şəhid olanlar və yaralananlar var idi. İyunun 26-sı öncəsi döyüşçülərimizin ərzaq və sursatının tükənməkdə olması barədə qərargaha məlumat verilmişdi. Komandanlıq tərəfindən onların zəruri ərzaq və sursatla təchiz edilməsi qərara alınmışdı. Ancaq düşmənin davamlı atəş altında saxladığı yoldan keçib döyüşçülərimizə yetişmək çox təhlükəli idi. Bu mühüm tapşırığı yerinə yetirməyi leytenant B.Pələngov öz üzərinə götürüb. Beləcə, iyunun 26-da onun rəhbərliyi ilə bir qrup şəxsi heyət ZİL-131 hərbi avtomobilində döyüş mövqelərinə doğru hərəkət ediblər. Aranzəminli kəndinin yaxınlığında hərbi avtomobil düşmənin PDM-2 zirehli texnikasından atılan mərmi ilə vurulub. Nəticədə hərbi avtomobilin kabinəsində olan leytenant B.Pələngov və daha bir neçə hərbi qulluqçu ağır qəlpə yaralanmasından həlak olublar. Beləcə, həmin gün leytenant B.Pələngov şəhidlik zirvəsinə ucaldı, xalqımız daha bir fədai oğlunu itirdi.

Şəhid zabit haqqında bu məqaləni hazırlayarkən, leytenant B.Pələngovun Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Suraxanı Rayon İdarəsində saxlanan şəxsi işi ilə tanış oldum. Şəxsi işində diqqət yetirdiyim sənədlər onun maraqlı xidmət bioqrafiyası barədə məqamları əks etdirir. Müxtəlif illərdə yazılmış xidməti xasiyyətnamələr və təqdimatlarda leytenant B.Pələngovun hərbçi nizamı və məsuliyyəti, özünə tələbkarlığı, prinsipiallığı, təşkilatçılığı, xidmət etdiyi sahələrdə işgüzarlığı, dürüstlüyü xüsusi vurğulanır.

Şəhidin ailəsinə də baş çəkdim. Pələngovlar ailəsi Bakının Yeni Günəşli qəsəbəsində yaşayırlar. Həyat yoldaşı Qətibə Pələngova onun haqqında xatirələrini danışdı. Qeyd etdi ki, onda əsl Azərbaycan kişisinə xas cəhətlər vardı, övladlarına qayğıkeş ata idi, həyatsevərliyi, nikbinliyi, ondan kömək uman hər kəsə əl uzatması, milli adət-ənənələrimizi dəyərləndirməsi, alicənablığı ilə yaddaşlarda qalıb.



*Leytenant B.Pələngov Ağdam döyüş bölgəsində (öndə soldan ikinci).*

Leytenant B.Pələngovun silahdaşları, onu yaxından tanıyanlar səmimi, sözü və əməli bir olan, dost qədri bilən, ailəcanlı, millətini, doğma torpağını sevən, müharibə sınaqları qarşısında heç vaxt büdrəməyən və güclü iradəsinə söykənən insan kimi xarakterizə edirlər.




*Şəhidin həyat yoldaşı və nəvəsi məzarını ziyarət edərkən.*

Qətibə xanım həyat yoldaşının ölümündən sonra ailəyə diqqət və qayğısını əsirgəməyən, ona mənəvi dayaq olan B.Pələngovun qardaşları - Nabatəli Pələngov və Əbülfət Pələngova dərin minnətdarlığını bildirdi.

Leytenant B.Pələngovun bir oğul, iki qız yadigarı qalıb. Anar, Röya və Günay onun yoxluğu acısı ilə yaşasalar da, şəhid bir zabitin övladları olduqlarından qürur duyurlar. Onlar ataya dərin ehtiram əlaməti olaraq, Bünyad soyadını daşıyırlar. Hər üçü də ali təhsillidir, ailə qurublar. Şəhid zabitin dörd nəvəsi var. Anar əsgəri xidmətini Daxili Qoşunlarda keçib. O, musiqiçidir. Vaxtilə B.Pələngov da gitarada ifa edib.

Onu da qeyd edim ki, Yeni Günəşlidəki 285 saylı orta məktəb və Lerikin Züvüç kəndindəki orta məktəb leytenant B.Pələngovun adını daşıyırlar. Hər iki məktəbdə müvafiq xatirə lövhəsi vurulub.

Leytenant B.Pələngov haqqında müxtəlif müəlliflərin kitablarında yazılar və poemalar dərc olunub.

Azərbaycan Respublikası Prezidentinin 9 mart 2007-ci il tarixli Sərəncamı ilə leytenant Pələngov Bünyadəli Qulam oğlu ölümündən sonra "İgidliyə görə" medalına layiq görülüb.

Şəhid zabit Bakıda Şəhidlər Xiyabanında dəfn olunub.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# DÜZGÜN TEXNİKİ QULLUQ UÇUŞ TƏHLÜKƏSİZLİYİNİN VACİB ŞƏRTİDİR

***Daxili Qoşunların hərbi hissələrində nizam-intizamı ilə fərqlənən, vəzifə borcuna vicdanla yanaşan, döyüş və mənəvi-psixoloji hazırlığında müsbət nəticələr göstərən hərbi qulluqçular haqqında qəzetimizdə müntəzəm olaraq məqalələr dərc edilir. Bu məqalələrin yazılması ilk növbədə qoşunların hərbi qulluqçuları barədə dolğun təsəvvür yaratmağa, həmçinin zabit, gizir, çavuş və əsgərlərimizi nümunəvi xidmətə həvəsləndirməyə yönəldilib. Çalışırıq ki, qəzetdə bütün kateqoriyalardan olan hərbi qulluqçularımızın xidməti, habelə ayrı-ayrı xidmət sahələrinin fəaliyyəti ardıcıl şəkildə işıqlandırılsın. Əlbəttə, hərbi qulluqçularımızın xidmətdə əldə etdikləri nailiyyətlərdən yazmaq, jurnalist qələmi ilə onların əməyini dəyərləndirmək hərbi qəzet redaksiyası olaraq işimizin vacib istiqamətidir.***

Daxili Qoşunların 17077 saylı hərbi hissəsində olarkən mənə xidmətdə uğurları ilə fərqlənən, müsbət şəxsi keyfiyyətlərə malik hərbi qulluqçular barədə məlumat verildi. Bildirildi ki, cari ilin I yarımilliyinin xidməti-döyüş fəaliyyətinin yekunları üzrə hərbi hissədə helikopter və mühərriklər, reqlament və istismar qrupu birincilik qazanıb. Bu nəticəyə görə hərbi hissə komandanlığı tərəfindən mükafatlandırılan qrupun fəaliyyətinə maraq göstərdim. Qrupun şəxsi heyəti ilə görüşüb söhbət etdim. Onların qarşısına qoyulan tapşırıqlar çoxşaxəlidir. Belə ki, şəxsi heyət eskadrilyanın sərəncamında olan helikopterlərin uçuşa hazırlığına, aviasiya texnikasının konstruksiyasının, yerüstü avadanlıqların sazlığına, düzgün istismarına cavabdehlik daşıyır. Onlar tərəfindən mühərrik və mexanizmlərinə zəruri texniki qulluq göstərilmədən helikopterlərin havaya qalxması mümkün deyil. Qrupun hərbi qulluqçularının gördüyü işlər uçuşların təhlükəsizliyi baxımından olduqca vacibdir. Bu məsuliyyəti onlar düzgün dərk edir və göstərilən etimadı doğrultmağa çalışırlar.

Leytenant Asif Zeynalov qrupun rəisidir. 1989-cu ildə Sumqayıt şəhərində anadan olub. 2011-ci ildə Azərbaycan Dövlət Texniki Universitetini bitirib. İxtisasca mühəndisdir. 2013-cü ilin yanvar ayından qoşunların sıralarında xidmət edir. Qrup rəisi vəzifəsinə yüksələnədək baş mexanik və baş texnik vəzifələrində xidmət edib. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Öz üzərində çalışan hərbi qulluqçudur və işgüzar keyfiyyətləri ilə fərqlənir. O, tabeliyindəki hərbi qulluqçuların fərdi cəhətlərinə yaxşı bələddir.

Qrupda texnik leytenant Orxan Tofiqli 1990-cı ildə Cəbrayıl rayonunda anadan olub. 2012-ci ildə Milli Aviasiya Akademiyasını bitirib. O da ixtisasca mühəndisdir. 2014-cü ilin aprel ayından qoşunlarda xidmət edir. Daxili Qoşunlarda xidmətinin ilk dövrü 67987 saylı hərbi hissədə keçib. Həmin ilin sentyabr ayından bu hərbi hissənin sıralarındadır. Texnik kimi üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlir. Nəzəri və praktiki biliklərini dərinləşdirməyə çalışır.





Kiçik çavuş Rüstəm Əliyev qrupda baş mexanikdir. O, 1993-cü ildə Quba rayonunda anadan olub. 9 saylı Bakı Peşə Liseyində təhsil alıb. Playner və mühərriklər üzrə ixtisaslaşma keçib. Hazırda Sankt-Peterburq Mülki Aviasiya Universitetində qiyabi təhsil alır. 2017-ci ilin fevral ayından qoşunların sıralarında bu hərbi hissədə xidmət edir. Xidmət təcrübəsi az olsa da, ona təhkim olunmuş sahədə vəzifə borclarını dəqiqliklə yerinə yetirir.

Gizir Azər Məmmədov qrupda mexanikdir. O, 1987-ci ildə Bakı şəhərində anadan olub. Bakı Kompyuter Kollecinin məzunudur. Avtomatika və idarəetmə sistemi üzrə texnik ixtisasına yiyələnib. Sankt-Peterburq Mülki Aviasiya Universitetində qiyabi təhsil alır. Daxili Qoşunlarda 2012-ci ilin sentyabr ayından xidmət edir. Mexanik kimi öhdəsinə düşən tapşırıqları əzmlə yerinə yetirir.

Bu hərbi qulluqçuları xidmətdə birləşdirən əsas cəhətlər onların hərbçi əqidəsi və aviasiya sahəsinə maraq göstərmələridir. Onların əksəriyyətinin ailə üzvü, yaxud yaxın qohumları aviasiyaya bağlı şəxslərdir.

Qrupun hərbi qulluqçuları Dövlət Aviasiya Akademiyasında, Müdafiə Nazirliyinin Aviatəmir zavodunda, Zabratdakı Helikopter şirkətində müvafiq ixtisas kursları keçiblər. Bu kurslar təcrübə qazanılması baxımından əhəmiyyətlidir.

Bu hərbi qulluqçulardan xoş təəssüratla ayrıldım. Daxili Qoşunların sıralarında xidmət etməkdən qürur duyan və peşə əzmkarlığı göstərən qrupun şəxsi heyətinin fəaliyyəti təqdirəlayiqdir.

**Yalçın Abbasov**